"Balakən Azərbaycanın çox gözəl guşəsidir" İlham ƏLİYEV




# YENİ BALAKƏN

İCTİMAİ-SİYASİ QƏZET ✦ № 05 (111) ✦ 31 may 2025-ci il







## Balakəndə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü ilə əlaqədar silsilə tədbirlər keçirilib



Mayın 10-u Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü ilə əlaqədar Balakən rayonunda silsilə tədbirlər keçirilib.

Rayon icra hakimiyyətinin başçısı İslam Rzayev, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, əmək kollektivləri, rayon ictimaiyyətinin nümayəndələri səhər saatlarından başlayaraq Ulu Öndərin Balakən şəhərindəki mədəniyyət və istirahət parkında ucaldılan abidəsi önünə gül dəstələri düzüb, xatirəsini dərin ehtiramla yad ediblər.

Daha sonra "Qubek" otelinin akt zalında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr edilmiş "Ulu Öndər Heydər Əliyev - Qəlblərdə Yaşayan Lider" mövzusunda konfrans keçirilib.Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Müstəqil Azərbaycan Respublikasının memarı və qurucusu, görkəmli dövlət xadimi, dünya miqyaslı siyasətçi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransda geniş məruzə ilə çıxış edən Balakən Rayon İcra Hakimiyyətinin başçısı İslam Rzayev müstəsna xidmətləri ilə əbədilik qazanan Ümummilli lider Heydər Əliyevin zəngin və çoxşaxəli irsindən bəhs edib. Dahi şəxsiyyətin Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, milli lider və xalq məhəbbətini qazanan öndər kimi əbədilik qazandığını vurğulayıb. Qeyd olunub ki, məhz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə bugünkü dövlət müstəqilliyimizin möhkəm təməli qoyulub. Ulu Öndərin uzaqgörən siyasəti nəticəsində Azərbaycanın sabitliyi təmin olunub, ölkəmiz bölgədə və beynəlxalq aləmdə söz sahibi olan bir dövlətə çevrilib. Onun ideyaları bu gün də yaşayır və inkişaf edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə bu ideyalar uğurla davam etdirilir, Azərbaycan güclənir, qüdrətlənir və regionda lider mövqeyini möhkəmləndirir.

Digər çıxış edənlər Balakən rayonu üzrə təhsil sektorunun müdiri Mehparə Mirzəyeva, "Azərbaycan Bayrağı" ordenli ehtiyatda olan zabit, Ulu Öndər Heydər Əliyevlə şəxsən görüşmüş Aydın Abdullayev, Azərbaycan Yazıçılar Birliyinin üzvü Ramazan Xutra çıxış edərək xalqımızın ümummilli lideri Heydər Əliyevin həyat və fəaliyyətindən, dövlətçiliyimizin möhkəmləndirilməsində, iqtisadiyyatın inkişafında, eləcə də gənclərin milli ruhda tərbiyə olunmasındakı misilsiz xidmətlərindən bəhs ediblər. Xalqımızın bugünkü firavan həyata, müstəqilliyimizin əbədi və dönməz olmasına, Azərbaycanın dünyanın inkişaf etmiş dövlətləri sırasına qoşulmasına görə Ulu Öndər Heydər Əliyevə borclu olduğunu bildiriblər.

Daha sonra Heydər Əliyev adına mədəniyyət və istirahət parkında geniş və maraqlı konsert proqramı təşkil olunub. Konsertdə yerli incəsənət ustaları tərəfindən Ümummilli Lider Heydər Əliyevə və müstəqil Azərbaycana həsr olunmuş vətənpərvər ruhlu musiqi nömrələri ifa olunub.

**Yeni Balakən**

## Azərbaycan xalqı bu gün əsrlər boyu arzusu ilə yaşadığı, mübarizə apardığı müstəqil, suveren, qalib dövlətə sahibdir




Azərbaycan xalqı bu gün əsrlər boyu arzusu ilə yaşadığı, mübarizə apardığı müstəqil, suveren, qalib dövlətə sahibdir. Qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına xalqımızın milli sərvəti sayılan ərazi bütövlüyümüz, suverenliyimiz tam bərpa olunub. Bütün ölkə ərazisində konstitusiya quruluşumuz bərqərar edilib. Bu il, müəllifi ümummilli liderimiz Heydər Əliyev olan Milli Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Prezident, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Vətən müharibəsində qazanılmış tarixi qələbəmizin 5-ci ildönümünüdür. Bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 28 dekabr 2024-cü il tarixdə Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında sərəncam imzalayıb.



"Konstitusiya və Suverenlik İli" və Heydər Əliyevin 102 illiyi münasibətilə Balakəndə, YAP Balakən təşkilatının inzibati binasında böyük tədbir keçirildi. İştirakçılar ilk öncə "Konstitusiya və Suverenlik İli" ilə əlaqədar təşkil olunmuş sərgiyə baxdılar. Dövlət himni ilə başlayan tədbirdə ulu öndər Heydət Əliyevin və Vətən uğrunda canından keçən şəhidlərimizin xatirəsi də bir dəqiqəlik sükutla anıldı. Rayon ictimaiyyətini əhatə edən tədbiri rayonun siyasi rəhbəri, YAP Balakən rayon təşkilatının sədri Azad Balayev açaraq iştirakçıları salamladı, tədbir barədə məlumat verərək, sözü Balakən RİH Başçısı İslam Rzayevə verdi. İ.Rzayevin geniş dolğun çıxışı YAP-ın yaranmasından, ulu öndərin hakimiyyətə gəlməsindən, fəaliyyətindən, konstitusiyanın qəbulundan bu yana onun siyasi kursunun davamçısı cənab İlham Əliyevin rəhbərliyində Azərbay- canın ərazi bütövlüyün, suverenliyin tam bərpası və bu gün uğurla davam edən dövlət idarəçiliyinə qədər mövzularla zəngin idi. Çıxış edən natiqlərdən Leyla Əliyeva, Rəşid Musayev, Azər Kərimov ulu öndərin əvəzsiz xidmətlərindən, cənab Prezident İlham Əliyevin bu günkü gözəl işlərindən, Azərbaycanın dünya dövlətləri içərisindəki nüfuzundan, gücündən, yüksəldiyi məqamlardan bəhs etdilər.

Tədbirdə YAP Balakən veteranları, şəhid ailələrinin nümayəndələrindən bir neçə nəfəri "Konstitusiya və Suverenlik İli", Heydər Əliyevin anadan olmasının 102 illiyi münasibətilə qiymətli hədiyyələrlə mükafatlandırıldı. Ənənəvi olaraq YAP Balakən təşkilatının hər tədbirində olduğu kimi bu tədbirdə də YAP sıralarına yeni daxil olanlara partiya bileti təqdim edildi.

Tədbirin ikinci hissəsi YAP veteranları, şəhid ailəsi nümayəndələri və digər mükafatçılarla çay stolu arxasında davam etdi.

**Yeni Balakən**



## Balakən Rayon Mərkəzi Xəstəxanasında 28 May - Müstəqillik Günü qeyd olundu





Balakəndə 28 May - Müstəqillik Günü ilə əlaqədar silisilə tədbirlər keçirildi: Mədəniyyət Mərkəzində, Heydər Əliyev mərkəzində, məktəblərdə o cümlədən də Balakən RMX-da.

28 May - Müstəqillik Günü münasibətilə Balakən Rayon Mərkəzi Xəstəxanasında təntənəli tədbir keçirilib. Tədbiri xəstəxananın direktoru Dilbər Quliyeva açaraq, Azərbaycan Xalq Cümhuriyyətinin yaranma tarixi və dövlət müstəqilliyimizin əhəmiyyəti haqqında geniş məlumat verib. O, çıxışında Azərbaycanın suverenliyinin qorunması naminə atılan addımları vurğulayıb, bu əlamətdar günün xalqımızın tarixində mühüm yer tutduğunu qeyd edib.

Daha sonra Balakən Rayon Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Şurası adından Burhan Əhmədov çıxış edərək tədbir iştirakçılarını Müstəqillik Günü münasibətilə təbrik edib. O, çıxışında 28 May tarixinin xalqımız üçün müstəsna əhəmiyyət daşıdığını, müstəqilliyimizin əldə olunması uğrunda göstərilən mübarizənin bu gün də böyük dəyər kəsb etdiyini bildirib.

**Yeni Balakən**

## Balakəndə sərnişin kanat yolu tikiləcək - Beş milyon manat ayrıldı

Prezident İlham Əliyev Balakən rayonunun Heydər Əliyev parkında sərnişin kanat yolunun layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

Sərəncama əsasən, Balakən rayonunun Heydər Əliyev parkında sərnişin kanat yolunun layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə beş milyon manat vəsait ayrılıb.



# Ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü və gömrük orqanlarına xidmətə yeni qəbul olunan əməkdaşların andiçmə mərasimi




Bu gün Balakən rayon Gömrük İdarəsində Ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü və gömrük orqanlarına xidmətə yeni qəbul olunan əməkdaşların andiçmə mərasimi ilə əlaqədar tədbir keçirildi.Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə iştirakçılar Ümummilli lider Heydər Əliyevin və Vətən uğrunda canlarından keçən şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad etdilər. Andiçməyə cəlb olunan əməkdaşlar boy sırası və qruplar halında düzüldükdən sonra andiçməyə təyin ounmuş məsul şəxs Balakən Gömrük İdarəsinin rəisi polkovnik-leytenant Kamran Yusifova məruzə etdi,məruzəni qəbul edən BGİ rəisi iştirakçıları salamladı.

Aparıcılar müstəqil, müasir Azərbaycanın qurucusu, öz zəngin və mənalı ömrünü bütövlükdə milətinə, xalqına, vətəninə və dövlətinə həsr etmiş ulu öndər Heydər Əliyevin siyasi portretini təqdim edərkən - Azərbaycan xalqının dövlətçilik təfəkkürünün, tarixin sınağından şərəflə çıxmış unikal idarəçilik məktəbinin,müasir ictimai-siyasi, fəlsəfi fikrin ən davamlı keyfiyyətlərinin canlı təcəssümüdür - deyə bildirdilər. Onu da qeyd etdilər ki, dahi şəxsiyyət Heydər Əliyev tarixdə Azərbaycan xalqının Ümummillli lideri, dünya miqyaslı ictimai-siyasi xadim,böyük mütəfəkkir, müstəqil Azərbaycan dövlətinin qurucusu, dövlətin inkişaf strategi- yasının əsasını qoyan, azərbaycançılıq ideologiyasını yaşadan, Azərbaycan xalqının iradəsini ifadə edən siyasi lider kimi hər bir azərbaycanlının qəlbində daima yaşayacaqdır.

Çıxşlardan sonra andiçmə mərasimi başladı. Gömrük sıralarında vətənə, dövlətə sədaqətlə xidmət edəcəklərinə, vəzifə borclarını layiqincə yerinə yetirəcəklərinə and içərək gömrük orqanlarında xidmətə yeni qəbul olunan əməkdaşlar, tribuna önündən təntənəli sıra düzülüşü ilə keçdilər.

Sonda söz alan Balakən Gömrük İdarəsinin rəisi, gömrük xidməti polkovnik-leytenant Kamran Yusifov and içən bütün gömrük əməkdaşlarını səmimi qəlbdən təbrik edərək, məsuliyyətli və şərəfli peşə fəaliyyət- lərində uğurlar arzuladı. Çıxışına Heydər Əliyevin "Gömrük xidməti hər bir dövlətin müstəqilliyinin əsas atributlarından biridir" sözüylə başlayan Kamran müəllim, Heydər Əliyevin Azərbaycanın iqtisadi təhlükəsizliyinin qorunmasının və daha da möhkəmləndirilməsinin əsas istiqamətlərindən birini yüksək səviyyəli gömrük xidmətinin yaradılmasında gördüyünü bildirdi, - Məhz dahi rəhbərin uzaqgörən siyasəti, gömrük sisteminin formalaşması üçün verdiyi dəyərli tövsiyələri və bu qurumun daha da inkişafına yönələn iqtisadi siyasətinin nəticəsində Azərbaycanda gömrük xidməti modern,dünya standartlarına uyğun bir təsisat kimi formalaşdı - deyə qeyd etdi. Natiq onu da vurğuladı ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bütöv Azərbaycan sərhədlərində mövcud olan,milli və iqtisadi təhlükəsizliyimizin keşiyində dayanan gömrük xidməti, ölkəmizin davamlı inkişafı naminə qarşıya qoyulan hədəflərə doğru inamla irəliləyir.

Ən sonda tədbir iştirakçıları ilə birgə xatirə foto şəkil çəkildi.

**Yeni Balakən**

# Balakəndə "Akademik Yaqub Mahmudovun elmi fəaliyyətində Şimal-Qərbi Azərbaycan tarixi məsələləri" mövzusunda konfrans keçirildi





Mayın 6-da "Konstitusiya və Suverenlik İli" çərçivəsində Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü münasibətilə Balakən Rayon İcra Hakimiyyəti, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Şəki Regional Elmi Mərkəzi və AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun birgə təşkilatçılığı ilə "Akademik Yaqub Mahmudovun elmi fəaliyyətində Şimal-Qərbi Azərbaycan tarixi məsələləri" mövzusunda elmi-praktik konfrans keçirildi.

Konfrans iştirakçıları əvvəlcə Balakən Rayon Mədəniyyət Mərkəzinin foyesində akademik Yaqub Mahmudovun əsərlərindən və AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun nəşr etdiyi, tariximizin müxtəlif dövrlərini əhatə edən kitablardan ibarət sərgi ilə tanış olublar.

Konfransın əvvəlində Yaqub Mahmudova həsr olunan sənədli filmdən kadrlar nümayiş etdirilib.

Konfransı Balakən Rayon İcra Hakimiyyətinin başçısı İslam Rzayev açaraq, görkəmli alimin Azərbaycan elminə verdiyi töhfələrdən bəhs etdi.

AMEA-nın Şəki Regional Elmi Mərkəzinin direktoru, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru Yusif Şükürlü çıxışında qeyd edib ki, Yaqub Mahmudov Azərbaycan tarixinin müxtəlif dövrlərinə dair 1000-dən çox elmi əsərin müəllifidir. Akademikin rəhbərliyi və həmmüəllifliyi ilə "Qarabağ: real tarix, faktlar, sənədlər", "Naxçıvan: tarixi və abidələri", "İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi" və digər əsərlər işıq üzü görüb.

AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun direktoru, tarix elmləri doktoru Kərim Şükürov Yaqub Mahmudovun Azərbaycan tarixinin tədqiqi, öyrənilməsi və ölkəmizdə yüksəkixtisaslı tarixçi kadrların yetişdirilməsində mühüm xidmətlər göstərdiyini bildirdi.

Konfransda Yaqub Mahmudovun yetirmələrinin "Azərbaycan Albaniya dövlətinin qərb sərhədləri", "Azərbaycana qarşı ərazi iddialarında ingiloy problemi", "Şimal-Qərbi Azərbaycanda çarizmin müstəmləkəçilik rejiminə qarşı müqavimət hərəkatı", "Çarizmin Şimal-Qərbi Azərbaycanda zorakı xristianlaşdırma siyasəti" və digər mövzularda məruzələri dinlənilib, müzakirələr aparılıb.

Akademik Yaqub Mahmudov elmi fəaliyyətinə verilən dəyərə görə konfransın təşkilatçılarına təşəkkürünü bildirib, gənc nəsli tariximizi sevməyə, öyrənməyə və təbliğ etməyə səsləyib.

Konfransın sonunda ədəbi-bədii kompozisiya nümayiş olundu.

**Yeni Balakən**

# Balakən Rayon Mərkəzi Xəstəxanasında Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş tədbir keçirildi








Tədbirin açılışını Balakən RMX Publik Hüquqi Şəxs,direktor Dilbər Quliyeva edti. Ulu öndərin və vətən uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla anıldı.Elə ilk çıxışı özü edən Dilbər xanım, çıxışında Ulu Öndər Heydər Əliyevin müasir Azərbaycan dövlətinin qurulmasında və inkişafında misilsiz rolunu vurğulayaraq, onun rəhbərliyi ilə ölkəmizin əldə etdiyi uğurlardan danışıb.

Daha sonra SİHİ Şura sədri Könül Mustafayeva, Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətinə dair ətraflı məruzə ilə çıxış edib.

Heydər Əliyevin siyasi irsinin, dövlət quruculuğundakı töhfələrinin və xalqımızın rifahı naminə apardığı islahatların əhəmiyyətini bir daha vurğulayıb.

Tədbirdə, Heydər Əliyevin həyatına və fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş etdirilib. Videoçarxda, Ulu Öndərin Azərbaycanın müstəqilliyi uğrunda apardığı mübarizə, dövlətçiliyimizin bərpası və inkişafı sahəsindəki böyük uğurları, həmçinin xalqımıza verdiyi dəyərli xidmətlər əks olunub.

Balakən RMX-nın rəhbərliyi, tibb və qeyri-tibb işçilərinin iştirakı ilə Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini hörmət və ehtiramla anaraq, abidəsi önünə gül dəstələri düzdülər.

**Yeni Balakən**

# "PÖHRƏ" Təlim və İnkişaf Mərkəzinin açılışı





Bu gün Balakən şəhər Zərifə Əliyeva küçəsi ünvanında "PÖHRƏ" Təlim və İnkişaf Mərkəzinin açılış mərasimi oldu. Tədbirdə hörmətli qonaqlar, valideynlər və digər qonaqlar iştirak etdilər.

"PÖHRƏ" Təlim və İnkişaf Mərkəzinin ideya müəllifi, təsisçisi, təşkilatçısı, dərin düşünən, uzaq görən, hörmətli nəslin nümayəndəsi, əzizimiz, gənc ziyalımız Züleyxa xanım Dibirovadır. O, bu sahəyə tam bələd olan, işi dərindən bilən, rayonda ən nümunəvi müəssisənin idarəetməsində çalışan, təcrübəli kadrdır. Züleyxa xanımla söhbət zamanı, belə bir mərkəzi təsis etməsi fikrini açıqlayarkən onun nə qədər incə düşüncəli, bir çox zəruri nəzərə alaraq diqqətlə yanaşdığını, gələcəkdə "Pöhrəçilər" olaraq tanınacaq,dəsti xətti görünəcək bir yol açdığını görmək olur. İşləyən anaların yükünü azaltmaq, Balakəndə fəaliyyət göstərən bağçalarda körpələr qrupunun hardasa olmaması, körpə qruplarına uşaq qəbulu müraciətlərinin həddindən çox olması, bu tələbin yetərincə qarşılana bilməməsi, məktəbdə məktəbəqədər qruplarda günlük dərs müddətinin qısa olduğunu nəzərə alaraq gün ərzində uşaqların məşğul ola biləcəyi, onlarla məşğul olacaq mütəxəsislərin olduğu yer olaraqdan, yay aylarında hər cəhətdən boş qalmamaları, onlaraın faydalı və maraqlı fəaliyyətlə məşğul olmaları üçün yaradılması, "Pöhrənin" yaranma səbəblərinin az bir qismini ifadə edir. "PÖHRƏ" bir yenilikdir, rayonda və digər bir çox bölgələrdə bir ilkdir. Aşağıdakı qısa və kiçicik fəaliyyət təqdimatında çox böyük işlər var.

Həftənin 5 iş günü işləyəcək mərkəzdə tədris Azərbaycan dilində 3 gün, Rus dilində 2 gün olacaq və ingilis dili məşğələləri keçiriləcək. 1-3 yaş arası və 3-5 yaş arası olmaqlala iki bağça qrupu yaradılıb. İki mərtəbəli mərkəzin 1-ci mərtəbəsində yay aylarında yay məktəbi fəaliyyət göstərəcək. Yay məktəbində ingilis və rus dili dərsləri, cürbəcür maraqlı oyunlar, təcrübələr keçiriləcək və ekskursuyalar təşkil olunacaq. Gimnastika dərsləri də keçiriləcək, loqoped fəaliyyət göstərəcək. Sentyabr ayından etibarən məktəbəqədər hazırlıq qrupundan məktəbə gedən uşaqlar dərsdən sonra gəlib istirahət edəcək, əyinlərini dəyişib rahat geyimdə yemək yeyib, ev tapşırıqlarını həll edəcəklər, axşam saat 18:00-da valideyinləri gəlib uşaqlarını təhvil alacaqlar.

Mərkəzdə ali təhsilli rus və ingilis dili, təcrübəli ibtidai sinif müəllimləri, həmçinin uzun illərin təcrübəsinə malik məktəbəqədər təhsil müəssisələrində çalışan müəllimlər də fəaliyyət göstərir. Uşaqlar gündə üç dəfə qida ilə təmin olunacaq,bütün qida və ərzaqlar kənd məhsulları olub orqanikdir...

"PÖHRƏ" fəaliyyətinin əhatə dairəsi olaraq Balakənə, ideya olaraq Azərbaycana xeyirli, uğurlu olsun!

**Yeni Balakən**




# 65 İL ŞƏRƏFLİ ÖMÜR YOLU

20 may, 23 il mədəniyyət sahəsində çalışan, bizim hörmətlimiz Ramazan Çobanovun doğum günü- dür. 65 yaşı tamam olur. "Balakən" sarayda Ramazan Çobanovun yubiley tədbirindəyik. Mədəniyyət sahəsi elə bir sahədir ki, burda hər şey elə özündən düzəlir: Oxuyanı, ifa edəni, rəqs edəni, masabəyisi, xanəndəsi, ansamblı və sairəsi. Böyük, gözəl tədbirdə rayontini, sevgisini qazanmış, rayondan kənarda da hörməti olan, xətri sayılan insandır. Ramazan iki oğul atası,dörd nəvə babası, gözəl ailə başçısı,nəsil ağsaqqalıdır. Şərəfli ömür yolu keçən Ramazan Çobanovun həyatdakı dəstixətti,ailədə göstərdiyi nümunə bu gün övladlarının, ailə fərdlərinin timsalında, simasında açıq görünür.

Bilirsiz, (müəyyən oliqarxlar xaric)




dakı mədəniyyət müəssisələrinin nümayəndələri, hətta qonşu rayonların mədəniyyət müəssisələrinin rəhbərləri, nümayəndələri də iştirak edirlər. Arzu Ocaqverdiyevin aparıcılığında keçən məclisdə ilk söz Şəki-Zaqatala Regional Mədəniyyət İdarəsinin rəisi Emil Bədəlova verilir. Emil müəllim Ramazan Çobanov barədə danışaraq onun fəaliyyətini qiymətləndirdi, ona idarə adından "Təşəkkürnamə" və hədiyyə təqdim etdi. Növbə ilə qonaqlar söz dedilər, yubilyarı təbrik edərək ən xoş, səmimi diləklərini çatdırdılar. Tədbir iştirakçıları qabiliyyətli sənətkarlarımızın ifasında gözəl mahnılar, şeirlər dinlədi, rəqs etdilər.

Ramazan Çobanov uzun illər mədəniyyət sahəsində öz dürüstlüyü, bacarığı ilə seçilərək fəaliyyət göstərən nümunəvi biri olaraq hər kəsin hörmə-

65 yaş hər yerdə, hər işdə iş fəaliyyətinin son həddi, son yaşıdır. Bu yaşdan sonra təqaüdə çıxılır avtomatik olaraq. Hələ indidən sonra da uzun müddət işləyə biləcək gücə sahib olan Ramazan müəllim, bu gün həm də təqaüdə yola salınır, uğurlanır. Bu da gözəl bir şeydir ki, 65-i işdə tamamlayasan və işdən birbaşa təqaüdə çıxasan. Heç də hamıya qismət olmur. Qismətində belə gözəlliklər olanlar xöşbəxt insanlardır.

Yubilyara 100-cü ad gününü görməyi, sağlam, gümrah, ailəsi və sevənləri, dostları ilə birgə qeyd etməyi arzu edirik. Əlbəttə əmək müqaviləsi ilə olmasa da, mənəvi bağlarla səni uzun illər Balakən mədəniyyətində görmək diləyilə.

**Ramazan Abal.**

# "18 May - Beynəlxalq Muzeylər Günü" münasibətilə Balakən Rayon Tarix-Diyarşünaslıq Muzeyində "Tarixin keşikçiləri" adlı tədbir keçirildi




Tədbirdə muzeyin direktoru Turan Musayev, muzey əməkdaşları, tarix üzrə fəlsəfə doktoru Akif Məmmədli, Balakən rayonu üzrə təhsil sektorunun müdiri Mehparə Mirzəyeva, aparıcı məsləhətçi Sevinc İbadova, Balakən Rayon İcra Hakimiyyətinin baş məsləhətçisi Türkan Əliyeva, İmaməddin Nəsimi adına şəhər 2 nömrəli tam orta ümumtəhsil məktəbinin direktoru Samirə Varansova, şəhid anaları Zümrüd Məmmədova, Aynur Bayramova, Gülşən Kərimova, Uşaq Səfirlər Məclisinin fəal üzvləri və məktəblilər iştirak ediblər. Tədbirin açılışında muzeyin direktoru Turan Musayev çıxış edərək Beynəlxalq Muzeylər Gününün əhəmiyyətindən, muzeylərin cəmiyyətdəki rolu və tarixi-mədəni irsin qorunmasındakı missiyasından danışıb.

Ardınca çıxış edən qonaqlar muzeylərin tərbiyəvi, maarifləndirici funksiyalarını vurğulayıb, regionda aparılan mədəni işlərə diqqət çəkiblər. Tədbir bədii hissə ilə yekunlaşıb.

**Turan Musayev**
**Tarix-Diyarşünaslıq Muzeyinin direktoru**

# SSRİ idman ustası, görkəmli idmançı və məşqçi Əhməd Xalavasovun əziz xatirəsinə




Bu gün Balakən Olimpiya İdman Kompleksində SSRİ idman ustası, görkəmli idmançı və məşqçi Əhməd Xalavasovun əziz xatirəsinə həsr olunmuş sərbəst güləş üzrə açıq Balakən rayon turniri keçirildi. Respublika səviyyəli turnirdə ölkəmizin bir çox şəhər və rayonlarından, 25 komandada 400-ə yaxın idmançı sərbəst güləş növündə güclərini sınadı, yarışdı.Yarışı beynəlxalq dərəcəli hakimlər idarə edirdi. Xatirə turniri tədbirində Balakən RİH Başçısının birinci müavini Turan Dibirov, olimpiya çempionu İqbal Hacızadə, Gənclər İdman İdarəsinin rəisi Rasim Paçalov, Balakən İdman Məktəbinin direktoru Vasif Qomurov, Əhməd Xalavasovun övladları Həmzət bəy, Umuksu xanım, Əhməd müəllimin yetirmələri və digər qonaqlar iştirak etdilər. İştirakçılar çıxışlarında Əhməd müəllimin xidmətlərindən, onun yetirmələrindən, onunla olan xatirələrindən danışdılar. Ə.Xalavasovun qızı Umuksu xanım çıxışında atası ilə qürur duyduğunu, atası haqda danışanda onun güləşə olan bağlılığını, güləşi nə qədər sevdiyini-güləş onun həyatı idi-cümləsiylə bu hisslərə ən dəqiq tərcüman, şahid və doğma biri olaraq bildirirdi.

Qaliblər Fəxri Fərman,medal və qiymətli hədiyyələrlə təltif olundu. Təşəbbüskar Əhməd Xalavasovun övladları, təşkilatçı isə Namiq Həşimovun rəhbərliyində "Təknə" idman klubu idi. Turnirin, belə böyük və mötəbər idman tədbirinin keçilməsində məqsəd rayonda idmanın inkişafı, gənclərdə idmana marağın yaradılması, Əhməd Xalavasovun yolunu davam etdirərək sərbəst güləş növündə daha çox nailiyyətlər,müxtəlif yaş qruplarında yüksək nəticələr əldə etməkdir. Ən əsası da Balakənin idman sahəsində sözünü demiş, adı, titulu, müxtəlif dərəcələrdə istər məşqçi, istər hakim,istərsə də idmançı kimi yetir-



mələri olan,SSRİ idman ustası,hər kəsin sevimlisi olmuş, Balakənin fəxri, xatirəsi hər daim əziz olan Əhməd Xalavasovun adını yaşatmaq, xatirəsini tarixdə əbədiləşdirməkdir.

**Yeni Balakən**

# 25 il mədəniyyət sahəsində



Bir neçə gün öncə daha bir mədəniyyət sahəsində çalışan əməkdaşımız olan,Yeni Şərif Kənd Sənətkarlıq evinin müdiri Həsənova Elmira Rəsul qızının 65 yaşı tamam olraq təqaüdə çıxdı.

Elmira xanım ilk əmək fəaliyyətinə 1980-cı ildə kolxozda başlayıb.1998-ci ildə kolxozda ən son vəzifəzi arxiv müdiri olan Elmira Rəsul qızı 2000-ci ildən Yeni Şərif Sənətkarlıq Evinin müdiri vəzifəsində çalışıb. Bu il 9 mayda 65 yaşı tamam olub avtomatik olaraq təqaüdə çıxan Elmira xanım 25 il mədəniyyət sahəsində çalışıb. Çalışdığı hər yerdə kollektivin hörmətini qazanan Elmira xanım iş yoldaşları, mədəniyyət mərkəzinin nümayəndələri, dostları, qohumlarının da iştirak etdiyi "iş həyatına vida" tədbiri ilə həm 65 illik yubileyi qeyd edildi həm də təqaüdə uğurlandı..

Elmira xanıma uzun ömür, cansağlığı arzu edirik. Ola bilər o işdən gedir amma dostluğumuzda, yoldaşlığımızda, ürəyimizdə qalır. Elmira xanımı indidən sonrakı mədəniyyətimizin bütün tədbirlərinin həm fəxri qonağı, həm də iştirakçısı kimi görmək diləyilə.

**Ramazan Abal.**

# Balakən RMX-da ən son texnologiya məhsulu olan digital rentgen cihazı quraşdırılaraq balakənlilərin istifadəsinə verildi, rentgen müayinəsi üçün xidmətə başladı



Hardasa iki il olardı ki, Balakən RMX-nın açılşından (08.07.2010) bu yana işləyən rentgen aparatı xarab olmuş, işləmirdi. Balakən MRX-ya rentgen müayinəsi ilə əlaqədar çox sayda vətəndaş müraciət edir. Rentgen müayinəsi üçün gələnlərin böyük əksəriyyəti məcburən qonşu rayona göndərilir, az bir hissəsi də hansı ki, yüngül müayinə tələb olunanlar anbarda qalan 70-80-ci illərin portativ kiçik rentgen cihazı ilə müayinə olunurdu. Bu iki ilin hər ayı direktor Dilbər xanım Quliyeva aidiyyatı təşkilatlara məktubla, telefonla müraciət edərək xarab olmuş rentgen cihazının ya təmirini ya da yenisi ilə əvəzlənməsini xahiş və tələb edirdi. Düzdür, aidiyyatı orqanlar təmir məsələsində konkret addım ata bilməsələr də, başqa yerlərin anbarlarındakı işlənmiş cihaz təklif edirdilər. Amma Dilbər xanım səbirli və uzaq görən insandı. O, yaxşı bilir ki, işlənmiş cihazın da sonu yaxın və cari cihazın taleyi ilə bənzər olacaq.

Nəhayət, həqiqətən Balakən səhiyyəsinin təəssübünü çəkən, dövlətin balakənlilərə verdiyi səhiyyə xidmətini ən yüksək səviyyədə təşkil etməyə, çatdırmağa çalışan direktor Dilbər xanımın əzmi sayəsində bu gün Balakən RMX-da ən son texnologiya məhsulu olan digital rentgen cihazı quraşdırılaraq balakənlilərin istifadəsinə verildi, rentgen müayinəsi üçün xidmətə başladı. Yəni rentgenimiz düzəldi, artıq başqa rayonlara getməyə ehtiyac yoxdur.

TƏBİB-dən aldığımız məlumatla onu da öyrəndik ki, Balakən RMX-ya gətirilib quraşdırılan rentgen aparatı bu sahədəki texnologiyanın ən son və üstün modeli olub, respublikada cəmi iki ədəddir. Biri Bakıda "Semaşkoda" digəri isə Balakən RMX-da.Bu xoş xəbəri eşidən rayon sakinləri "Yeni Balakən" qəzeti vasitəsilə TƏBİB-ə təşəkkür edir, rayonun səhiyyəsində xidməti, zəhməti olanlara minnətdarlığını bildirir. Balakənimizə xeyirli, vətəndaşlarımıza şəfa üçün vəsilə olsun.

**Yeni Balakən**



# Bəxtiyar Vahabzadənin 100 illiyi tədbirlərindən

2025-ci ilin avqust ayında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq şairi, dramaturq, ədəbiyyatşünas, pedaqoq və ictimai xadim, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, akademik Bəxtiyar Mahmud oğlu Vahabzadənin anadan olmasının 100 ili tamam olur.

Bu münasibətlə **Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 21 fevral 2025-ci il tarixli sərancam** imzalamışdır:

**Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli ədəbi fikir xəzinəsinə qiymətli töhfələr bəxş etmiş söz ustası Bəxtiyar Vahabzadənin 100 illiyinin qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:**

**1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təklifləri nəzərə alınmaqla, Xalq şairi Bəxtiyar Vahabzadənin 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.**

**2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.**



Belə məsələlərdə hər zaman öndə və aktiv olan Balakən Uşaq İncəsənət Məktəbi, Bəxtiyar Vahabzadənin 100 illiyi münasibətilə Şəki şəhərinə Bəxtiyar Vahabzadənin ev muzeyinə ekskursiya təşkil etdi. Ekskursiya konsert tədbirində Balakən UİM müəllim və şagird kollektivi, məktəbin xor kollektivi, xalq çalğı alətləri ansamblı iştirak etdilər. Şairin ev muzeyi, yaradıcılığı ilə tanışlıq, onun oturduğu, yazıb yaratdığı, qonaq qarşıladığı məkanı, ona məxsus şəxsi əşyaları canlı görmək, bütün bunları Bəxtiyar Vahabzadənin 35 illik dostu olmuş Elşən Zəkəriyyəbəylinin dilindən, təqdimatında eşitmək iştirakçılarda xoş təəssuratlar, unudulmaz xatirələr yaratdı. Balakən UİM-nin xor kollektivi və xalq çalğı alətləri ansambılının ev muzeyinin həyətində verdiyi konsert iştirakçılar, şairin qonşuları tərəfindən maraqla, alqışla qarşılandı. Şairin o kiçicik, xudmani evində yaşadıqlarını, çay qonaqlığını, Bəxtiyar Vahabzadəgilə olan bu şirin ekskursiyanı iştirakşılar həyatın yaşanmış mənalı bir günü olaraq xatırlayacaq, heç zaman unutmayacaqlar.

**Yeni Balakən**

# Balakən Rayon Polis Şöbəsinin Dövlət yol polisi bölməsinin rayon əhalisinə M Ü R A C İ Ə T İ

Hörmətli Balakən rayon sakinləri!

Məlum edirik ki, 2025-ci ilin may ayının 10-dan iyun ayının 10-dək Balakən Rayon Polis Şöbəsinin Dövlət yol polisi bölməsinin əməkdaşları tərəfindən Balakən rayon ərazisində Təmiz hava aylığı keçirilir. Aylığın keçirilməsində məqsəd Azərbaycan Respublikası Daxili İşlər və Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nəzirlikləri tərəfindən nəqliyyat vasitələrindən atılan zərərli tullantılarla atmosfer havasının çirklənməsinin qarşısını almaqdan, mühərriklərinin işlənmiş qazlarında zərərli maddələrin miqdarı normadan artıq olan nəqliyyat vasitələrini müəyyən edib qanunvericiliyə uyğun tədbirlər görməkdən ibarətdir.

"Yol hərəkəti haqqında" və "Atmosfer havasının mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanunlarının tələblərini rəhbər tutaraq, Daxili İşlər Orqanları tərəfindən nəqliyyat vasitələrinin saz saxlanılması ilə bağlı aparılan nəzarət tədbirlərinə baxmayaraq, yollarda hələ də texniki vəziyyəti yol hərəkəti təhlükəsizliyinin tələblərinə cavab verməyən, habelə normadan artıq tüstü və digər çirkləndirici maddələr buraxmaqla ətraf mühitə və insan sağlamlığına zərər vuran avtomobillərə tez-tez rast olunur.

Nəqliyyat vasitələrinin itsismarı nəticəsində ətraf mühitin zərərli qazlarla çirklənməsinin qarşısının alınması və belə pozuntuların insanların həyat və sağlamlığına ciddi təhlükə törətməsi barədə sürücülərə, sərnişin və yük daşıma fəaliyyətini həyata keçirən fiziki və hüquqi şəxslərə bölmə əməkdaşları tərəfindən müntəzəm olaraq müvafiq izahlar verilir. Aylıq çərçivəsində uzun müddət yaşayış binalarının, evlərin həyətlərində, küçə və yollarda saxlanılan istismara tam yararsız vəziyyətdə olan nəqliyyat vasitələrinin həmin ərazilərdən götürülməsi və dövlət qeydiyyatından çıxdaş edilməsi məqsədilə onların sahibləri ilə profilaktik söhbətlərin aparılması da əsas məsələlərdən biridir.

Odur ki, Balakən Dövlət Yol Polisi rayonumuzun avtonəqliyyat vasitələrinin sahiblərinə müraciət edərək onlardan tələb edir ki, istifadələrində olan avtonəqliyyat vasitələrini "Yol hərəkəti haqqında" və "Atmosfer havasının mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanunlarının tələblərinə uyğun olaraq saz vəziyyətdə saxlanılmasına riayət etsinlər. Bununla siz əhalinin sağlamlığının qorunması və atmosfer havasının mühafizəsi işində mühüm rol oynamış olursunuz.

Gəlin, birlikdə əhalimizin sağlamlığının qeydinə qalaq!

**Balakən RPŞ-nin DYPB-si**

MƏSUL REDAKTOR: Ramazan ABALOV

Ünvanımız: Balakən şəhər. Nəsimi küçəsi 31b
www.yeni balaken.az
ramazanabal@gmail.com
Mob: 050 518 17 60

HESAB NÖMRƏMİZ:
VÖEN 3800335882
H/h AZ60IBAZ41040019449452514345
Azərbaycan Beynəlxalq Bankın Balakən Filialı.
Kod 805959, VÖEN 9900001881.
M/h AZ03NABZO1350100000000002944. IBAZAZ2X

Qeydiyyat №: 7CADF329A82153
Qəzet Mingəçevir şəhər Poliqrafiya müəssisəsində ofset üsulu ilə çap olunmuşdur.
Tiraj 100